# "Mən kökümlə bu torpağa bağlıyam"

*Xalq şairi R.Rzanın anadan olmasının 115 illiyi münasibətilə*



24 may 2025-ci il tarixdə AYB Lənkəran bölməsinin və Lənkəran şəhər Mərkəzləşdirilmiş kitabxana sisteminin birgə təşkilatçılığı ilə Azərbaycanın Xalq şairi Rəsul Rzanın anadan olmasının 115 illiyi münasibətilə Mərkəzi kitabxananın oxu zalında "Mən kökümlə bu torpağa bağlıyam" adlı tədbir keçirildi.

Tədbirdə Bakı şəhərindən gələn qonaqlar, bölgə yazarları, ziyalılar, aktyorlar, kitabxana sisteminin əməkdaşları, məktəbli şagirdlər iştirak etdilər.

Tədbir öncəsi iştirakçılar xalq şairi R.Rzanın çoxsaylı kitab və şəkillərindən hazırlanan guşə ilə tanış oldular.

Tədbiri giriş sözü ilə Kitabxana Sisteminin direktoru Arzu Rufullayeva açıb iştirakçıları salamladı və tədbiri idarə etmək üçün sözü AYB Lənkəran bölməsinin sədri, yazıçı-dramaturq Qafar Cəfərliyə verdi.

Əvvəlcə tədbir iştirakçıları görkəmli şairimiz Rəsul Rzanın və torpaqlarımızın işğaldan azad olunması uğrunda həyatlarını qurban vermiş şəhidlərin müqəddəs ruhlarını bir dəqiqəlik sükutla yad etdilər. Azərbaycan Respublikasının dövlət himni səsləndirildi.

Q.Cəfərli çıxışında görkəmli şairimiz Rəsul Rzanın həyatı barədə tədbir iştirakçılarına məlumat verdi. O bildirdi ki, çox erkən yaşlarından ədəbi yaradıcılıqla məşğul olan Rəsul Rza 1934-cü ildə, yəni 24 yaşında yenicə yaradılan Azərbaycan Yazıçılar İttifaqının ilk üzvlərindən olub. Sonralar Yazıçılar İttifaqının sədri, Azərbaycanın Kinematoqrafiya naziri, Azərbaycan Ensiklopediyasının baş redaktoru, Asiya və Afrika Ölkələri üzrə Respublika Komitəsinin sədri kimi məsul vəzifələrdə çalışıb. 1943-cü ildə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, 1960-cı ildə Azərbaycanın Xalq şairi, 1980-ci ildə isə dövrünün ən yüksək mükafatı olan Sosialist Əməyi Qəhrəmanı kimi fəxri adlara layiq görülüb.

Sonra şair, dramaturq, tərcüməçi, ictimai xadim R.Rzanın həyatı barədə videorolik nümayiş olundu.

Məxsusən tədbirdə iştirak etmək üçün Bakı şəhərindən təşrif buyuran AMEA Ədəbiyyat İnstitutunun Ədəbi Tənqid şöbəsinin müdiri, filologiya elmləri doktoru, görkəmli ədəbiyyatşünas alim Vaqif Yusifli yubilyarın yaradıcılığı barədə geniş məruzə etdi. R.Rzanı istedadlı və novator şair kimi səciyyələndirən V.Yusifli onun ədəbiyyat tariximizdə özünəməxsus, yüksək yer sahibi olduğunu bildirdi. R.Rzanın "romantik qəlbli şair" (Səməd Vurğun), "böyük humanist,...xalqla dərin, qırılmaz əlaqədə olan" (Süleyman Rüstəm), "sağlam siyasi görüşlərə malik olan" (Mehdi Hüseyn), "daha ziyadə lirik, xitabətçi və inqilabi romantizmə malik" (Əli Nazim), "yoruldum" deməyən bir kəşfiyyatçı, bir şair" (Süleyman Rəhimov), "poeziyasında qılınc kimi kəskin həqiqətlər olan" (İlyas Əfəndiyev)" şair olduğunu önə çəkdi. V.Yusifli şairin bir çox şeirlərini ədəbi tənqid nöqteyi-nəzərindən təhlil edərək yüksək poetik nümunələr kimi xarakterizə etdi.

Tədbir iştirakçılarından Cəlilabad rayonundan gəlmiş filologiya üzrə fəlsəfə doktoru, şair Bilal Alarlı, Lənkəranda yaşayan şairlər - Xatirə Xatun, Ziyafət Yəhya, Xudaverdi Cavad, kitabxananın əməkdaşı Habil Axundov çıxış edərək R.Rza ilə bağlı fikir və düşüncələrini bölüşdülər.

Bilal Alarlı və Xudaverdi Cavad yubilyara həsr etdikləri şeirləri söylədilər.

Lənkəran Dövlət Dram Teatrının tanınmış aktrisası Aynur Əhmədovanın, Lənkəran şəhər 10 saylı tam orta məktəbin şagirdləri: Zəhra Kərimli və Zəhra Məmmədlinin böyük şairimizin yaradıcılığından ifa etdikləri şeirlər tədbir iştirakçıları tərəfindən maraqla qarşılandı.

Tədbirdə gözəl müğənnimiz Akif İslamzadənin ifasında səslənən xalq şairi Nigar Rəfibəylinin həyat yoldaşı Rəsul Rzaya həsr etdiyi şeirə bəstələnmiş "Ala gözlüm (Neyləyim)" mahnısı və kitabxananın əməkdaşı Habil Axundovun ifasında canlı səslənən bəstəkar Hacı Xanməmmədovun R.Rzanın sözlərinə bəstələdiyi "Kəkliyim" mahnısı tədbirə xüsusi bir rəng qatdı.

Tədbiri Qafar Cəfərli yekunlaşdıraraq novator sənətkarımız, xalq şairi Rəsul Rzanın ruhunu yad edərək, doğum gününü qeyd etmək üçün tədbirə qatılan bütün iştirakçılara minnətdarlığını bildirdi.

Tədbirin sonunda xatirə şəkilləri çəkildi.

***AYB Lənkəran bölməsi***